# Azərbaycan-Koreya münasibətləri yeni inkişaf mərhələsindədir

"Azərbaycan-Koreya əməkdaşlığının müxtəlif sahələrini əhatə edən 60-dan çox hüquqi sənəd imzalanıb. Bunun nəticəsində ikitərəfli əlaqələr yüksələn xətlə inkişaf edir".

Bu fikirlər dünən Milli Məclisdə Azərbaycan-Koreya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri ilə Koreya Milli Assambleyasının üzvü, Koreya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Li Myonq Sunun başçılıq etdiyi nümayəndə heyəti arasında keçirilən görüşdə səsləndi.

Azərbaycan-Koreya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədr müavini Xanlar Fətiyev Azərbaycanla Koreya Respublikası arasında əlaqələrin son illər yüksəliş dövrü yaşadığını vurğuladı: "Bu əlaqələrin dinamikası hər iki ölkənin prezidentlərinin qarşılıqlı səfərləri ilə daha da artıb. Həmçinin, ikitərəfli münasibətlərin inkişafına Koreya-Azərbaycan parlamentlərarası dostluq qrupu da töhfələrini verir".

Görüşdə iki ölkənin xalqları arasında tarixən mövcud olan dostluq əlaqələrindən də söhbət açıldı, Koreya ilə münasibətlərin gündən-günə inkişaf etdiyi vurğulandı.

Li Myonq Su Azərbaycanın beynəlxalq aləmdə yüksək nüfuza malik olmasının onları sevindirdiyini bildirdi, iki ölkə arasında əlaqələrin inkişaf perspektivlərindən danışdı. O, Azərbaycanın evsahibliyi etdiyi və iştirakçısı olduğu beynəlxalq tədbirlərdən məmnunluqla söz açdı, gələcəkdə yeni sahələr üzrə təcrübə mübadiləsini genişləndirməkdə maraqlı olduqlarını söylədi.

Görüşdə Azərbaycan ilə Koreya arasında qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

***Səbinə MƏMMƏDOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2018.- 25 yanvar.- S.3.